# ARXİV MÜDİRİ VƏZİFƏSİ ÜZRƏ
# MÖVZULAR

1. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanunu
2. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu
3. “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”
4. “Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamə”
5. “Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydası”
6. Sənədlərin mühafizəsi
7. Sənədlərin qəbulu
8. Arxiv işi

**1.“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən təşkilatlarda kargüzarlığın aparılması kim tərəfindən həyata keçirilir? Tam və düzgün cavabı müəyyən edin.**

A)Ümumi şöbə tərəfindən
B)Dəftərxana və ya xüsusi olaraq bu məqsəd üçün ayrılan əməkdaşlar tərəfindən
C)Kargüzarlıq xidməti tərəfindən
D)İcraya nəzarət və kargüzarlığın təşkili şöbəsi tərəfindən
E)Texniki təchizat bölmələri tərəfindən

**2.“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən tabe təşkilatlarda kargüzarlığın aparılması qaydalarına riayət olunması üzərində nəzarətin həyata keçirilməsi vəzifəsini hansı bölmələr icra etməlidirlər?**

A)Həmin təşkilatların ümumi şöbəsi
B)Həmin təşkilatların daxili nəzarət şöbəsi
C)Həmin təşkilatların baş təşkilatları
D)Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ümumi şöbəsi
E)Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Ümumi şöbəsi

**3. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşlıq vəziyyəti aktları, notarial fəaliyyət, məhkəmə işləri və şəxsi heyət barədə sənədlər üçün müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?**

A) 5 il
B) 10 il
C) 15 il
D) 75 il
E) 3 il

**4.“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən əsasən gətirilən korrespondensiyanın düzgünlüyünü yoxlanılmasında əsas məqsəd nədir?**

A)Təyinat üzrə gətirilən korrespondensiyanı aşkar etmək
B) Təyinat üzrə gətirilməyən korrespondensiyanı aşkar etmək
C) Korrespondensiyanı qeydiyyata almaq
D) Korrespondensiyanı geri qaytarmaq
E) Korrespondensiyanı icraçılara çatdırmaq

**5.“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənədin başlığı vərəqin hansı hissəsində yazılmalıdır?**

A) Vərəqin sağında mətndən əvvəl
B) Vərəqin ortasında mətndən əvvəl
C) Vərəqin ortasında mətndən sonra
D) Vərəqin solunda mətndən əvvəl
E) Mətndən sonra vərəqin sağında